| S/n | adı, soyadı | vəzifəsi |
| --- | --- | --- |
| 1 | Arzu Əliyev | baş idarənin rəis müavini |
| 2 | Abbas Allahverdiyev | gömrük prosedurları və ödənişləri şöbəsinin rəisi |
| 3 | Qalib Əliməmmədov | mühasibat uçotu və təchizat şöbəsinin rəisi |
| 4 | Allahverdi Mədədov | "Samur" gömrük postunun rəisi |
| 5 | Valid Nəsirov | "Yalama" gömrük postunun rəisi |
| 6 | Vasif Əsədov | "Xanoba" gömrük postunun rəisi |
| 7 | Renat Yolçiyev | "Şirvanlı" gömrük postunun rəisi |
| 8 | Elvin Rəhimov | "Zuxul" gömrük postunun rəisi vəzifəsini müvəqqəti icra edən |
| 9 | Rüstəmov Rüstəm | "Qafqaz konserv zavodu" MMC |
| 10 | Nizami Ağayev | "Dəvəçi dəyirman" MMC |
| 11 | Məmməd Məmmədov | "Dəvəçi taxıl" MMC |
| 12 | Elşən Məhərrəmov | "Yeni Xaçmaz Taxıl" MMC |
| 13 | Zaur Əliyev | "Yalama Aqropark" MMC |
| 14 | Rəhman Məmmədov | "Aqrokimya" MMC |
| 15 | Rüstəm Quliyev | "Hado" MMC |

07.05.2018-ci il Xaçmaz şəhəri

**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Xaçmaz Gömrük İdarəsində 07 may 2018-ci il tarixdə keçirilmiş görüşün**

PROTOKOLU No 3

**İştirak edirlər:** Xaçmaz Gömrük İdarəsinin ərazisində fəaliyyət göstərən sahibkarlar, Xaçmaz Gömrük İdarəsinin nümayəndələri.

Sədr: Pərviz Rəhimov

Katib: Elxan Səmədov

**Görüşün mövzusu:**

Azərbaycan Respublikasında ixracın stimullaşdırılması, xarici iqtisadi fəaliyyət iştirakçılarına münbit şəraitin yaradılması, maliyyə intizamının möhkəmləndirilməsi, eyni zamanda, qeyri-neft məhsulları ixracının təşviqi istiqamətində həyata keçirilən tədbirlərin müzakirəsi

**Dinlənildi:**

**1. Dövlət Gömrük Komitəsi Xaçmaz Gömrük İdarəsinin rəisi Pərviz Rəhimov** giriş sözü ilə çıxış edərək Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə qeyri-neft sektorunun inkişafı, daxili istehsalın artırılması, ölkənin ixrac potensialının gücləndirilməsi, daxili bazanın qorunması istiqamətində həyata keçirilən tədbirlərdən və görülən işlərin ölkə iqtisadiyyatının inkişafına təsirindən bəhs etdi.

Ölkədə iqtisadi islahatların həyata keçirilməsində gömrük xidmətinin də öz töhfəsini əsirgəmədiyini bildirən Pərviz Rəhimov sahibkarlıq mühitinin yaxşılaşdırılması, ticarətin asanlaşdırılması və sürətləndirilməsi istiqamətində gömrük orqanlarının fəaliyyəti barədə görüş iştirakçılarına geniş məlumat verdi.

İdarə rəisi Gömrük İdarəsində bu sahədə müəyyən işlərin görüldüyünü, iş adamlarının daha səmərəli fəaliyyət göstərmələrinə lazımi şəraitin yaradılması üçün bütün strukturlarla söhbətlər aparıldığını, müvafiq göstərişlərin verildiyini, eyni zamanda Gömrük İdarəsinə müraciət edən hər bir iş adamına qayğı göstərildiyini, zərurət yarandıqda onlar təlimatlandırıldığını və edilən hər bir sorğuya vaxtında cavab verildiyini müşavirə iştirakçılarının diqqətinə çatdırdı.

**2. Sonra çıxış edən Xaçmaz Gömrük İdarəsi rəisinin müavini Zal Zalov** bildirdi ki, ölkədə xarici iqtisadi fəaliyyət iştirakçılarına münbit şəraitin yaradılması, maliyyə intizamının möhkəmləndirilməsi, eyni zamanda qeyri-neft məhsulları ixracının təşviqi istiqamətində həyata keçirilən tədbirlər sahibkarların öz məhsullarını ixrac etməyə marağını artırıb.

Bu ilin birinci rübünün göstəricilərində ötən ilin müvafiq dövrü ilə müqayisədə qeyri-neft məhsullarının ixracı, o cümlədən kənd təsərrüfatı və emalı məhsullarının ixracında

artım müşahidə olunduğu diqqətə çatdırılıb, meyvə-tərəvəz məhsullarının ixracındakı artım isə xüsusilə vurğulanıb.

(Xaçmaz Gömrük İdarəsi rəisinin müavini Zal Zalovun çıxışının tam mətni əlavə olunur).

**Xarici iqtisadi fəaliyyət iştirakçı Bəxtiyar Əmirbəyov** ("Amoris" firması) çıxış edərək 1993-cü ildən başlayaraq yeni yaranmış sahibkar təbəqəsinin inkişafına daim diqqət və qayğı göstərildiyin, dövlətin onlara daim himayədarlıq etməsini vürğulayaraq məmurların sahibkarlara mane olmadığını,onların fəaliyyətinə yersiz müdaxilənin edilmədiyini, onlara qayğı ilə yanaşıldığını qeyd etdi.

Daha sonra görüş diskussiya şəraitində davam etdi və sahibkarları maraqlandıran suallar ətraflı cavablandırıldı.

Sədr: Pərviz Rəhimov

Katib: Elxan Səmədov